

# Qısa zaman kəsiyində

**Onunla hər görüşümüz səmimi, işgüzar şəraitdə keçir. Həyata keçirilmiş tədbirlər, gerçəkləşdirilmiş layihələr, aparılmış quruculuq işləri barədə elə fərəhlə söhbət açır ki, bu sevinci onunla bölüşməyə, həmsöhbət olmaya bilmirsən.**

**Bu dəfəki görüşümüz də bu baxımdan yaddaqalan oldu. Azər müəllim son bir ildə görülmüş işlərdən danışdı, birgə İsmayıllı şəhərini dolaşdıq, bölgənin hüsnünə əlavə çalar qatan abadlıq, yenidənqurma işləri ilə tanış olduq.**

Müsahibimiz İsmayıllı Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Azər Abbasovdur. Onunla söhbətimizi dəyərli oxucularımızın diqqətinə veririk.

-Hesabat dövründə rayonumuzda çox işlər görülmüşdür. Təbii ki, onların hamısını sadalamaq imkanımız xaricindədir. Bununla belə ən vaciblərini qeyd etmək məqsədəuyğundur. Beləliklə, 2009-cu ilin iyunundan bu günədək İsmayıllıda aşağıdakı layihələr gerçəkləşdirilmişdir:

İsmayıllıda tarix-diyarşünaslıq muzeyi üçün yaraşıqlı, müasir standartlara cavab verən bina tikilmiş və geniş ictimaiyyətin iştirakı ilə açılışı olmuşdur. Bu təntənəli tədbir 2009-cu il oktyabrın 29-da baş tutmuşdur. Muzeyin yeni binasının Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən açılışı əhali tərəfindən böyük coşqu hissi ilə qarşılanmışdır.

Neçə vaxtdır fəaliyyət göstərməyən Girk kənd klubu ləğv olunmuş, onun bazası əsasında tarix-diyarşünaslıq muzeyinin əvvəlki binasında xalq yaradıcılığı klubu təşkil olunmuşdur.

Burada ərazidə olan xalq yaradıcılığı nümunələri toplanmış və nümayişi xüsusi maraq doğurur. 2009-cu ildə rayon mədəniyyət evi, uşaq kitabxanası və mərkəzi kitabxanada 52420 manatlıq təmir işləri aparılmış, 16023 manatlıq inventar və avadanlıq alınmışdır.

Pirdinar kəndi yaxınlığında e.ə. III minilliyə aid abidə aşkar olunmuşdur. Bütövlükdə qeydə alınan yeni abidələrin sayı 57-yə çatdırılmışdır. Rayon ərazisindəki bütün abidələrin inventarizasiyası aparılmışdır.

Uşaq incəsənət məktəbində istilik sistemi quraşdırılıb, bütün otaqlara pərdə, stol və stul verilib, televizor və DVD ayrılıb, kitabxananın işi təkmilləşdirilib, müəllimlərin attestasiyası keçirilib, 3 ədəd tar, 1 ədəd pianino, 1 ədəd qaval alınıb, hər bir otaq işıq sistemi və dövlət atributları ilə təmin olunub, İvanovka kəndində UİM-nin filialının açılması ilə bağlı müvafiq razılıq alınıb, xalq artisti Səkinə İsmayılovanın iştirakı ilə ustad dərsləri təşkil olunub, Mədəniyyətşünaslıq üzrə EMM-in rəhbər işçiləri ilə görüş keçirilib.

Şöbədə büdcədənkənar pullu xidmət işi yenidən qurulub, tibb, biçmə-tikmə, foto, kompyuter dərnəklərinin fəaliyyəti təkmilləşdrilib, şöbə kompyuterləşdirilib və internetə qoşulub, şöbənin və MKS-in elektron saytı yaradılıb.

Bakıda Heydər Əliyev adına Konsert və İdman kompleksində dünyanın 24 ölkəsi və respublikanın 15 rayonunun iştirakı ilə keçirilən I Ümumrespublika Daxili Turizm sərgisinə İsmayıllı rayonu da fəal qoşulub. Bu fəallıq Şəki şəhərində keçirilən atçılıq yarışında da özünü biruzə verib. Belə ki, həmyerlilərimiz həm 2009-cu ilin dekabrında, həm də 2010-cu ilin may ayında çalpapaq oyununda I dərəcəli diplomla mükafatlandırılıb.

Rayonun milli-mədəni dəyərləri- tarixi abidələri, folkloru, adət-ənənəsi mütəmadi olaraq AzTV, ANS, ATV, Spase və s. telekanallarda nümayiş etdirilib.

İlin ən yaxşı mədəniyyət müəssisəsinin müsabiqəsi keçirilmiş və bu yarışda fərqlənən rayon mədəniyyət evi, Qubaxəlilli, Sulut mədəniyyət evləri, Mollaisaqlı, Təzəkənd kitabxanaları III dərəcəli diploma layiq görülmüşdür.

Rayonda yubiley tədbirləri və tarixi əlamətdar hadisələrlə bağlı keçirilən müsabiqə, sərgi və s. yüksək səviyyədə reallaşdırılır.

Maraqlıdır ki, bu tədbirlərə respublikanın tanınmış sənətçiləri də dəvət alır. Xalq artistləri Nazpəri Dostəliyevanın və Mübariz Tağıyevin dəvət aldıqları "Novruz" və "Qələbə-65" şənlikləri buna bir nümunədir.

Rayonda turizmin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər də öz səmərəsini verir.

Hər il respublikamızın bu abidələr guşəsinə 15-20 min nəfərədək turist gəlir. Bundan başqa 8-10 min nəfərdən artıq qonaq Lahıc və Basqal qoruqlarına səyahət edir.

**Bütün bunlar İsmayıllıda gerçəkləşdirilən tədbirlərin yalnız bir qismidir. Mədəniyyətimizin inkişafı və təbliği ilə bağlı yerlərdə görülən işlər haqqında növbəti saylarımızda daha ətraflı söhbət açacağıq...**

**Tural**



# Yeni ədəbiyyatlar almışıq



**Həmsöhbətimiz Xızı Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Ayşən Əliyevadır.**

Əliyeva Ayşən Mahir qızı respublikada fəaliyyət göstərən MKS rəhbərlərindən ən gəncidir. O, 1990-cı il sentyabrın 6-da Xızı rayonunun Tıxlı kəndində anadan olub. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının sənətşünaslıq fakültəsinin tələbəsidir. 2008-ci ildən MKS-də çalışır.

Söhbət zamanı A.Əliyeva kollektivin işi barədə aşağıdakıları söylədi:

-Sistemimiz 12 filialı birləşdirir. Bütövlükdə 65529 nüsxədən ibarət kitab fondumuz var. Onlardan 16394 nüsxəsi latın, 48797 nüsxəsi kiril qrafikalı, 338 nüsxəsi isə xarici dildə olan ədəbiyyatlardır.MKS-in kitab fondu 10576 (5552-si latın qrafikalı), filialların kitab fondu 54953 (10842-si latın qrafikalı) nüsxəyə bərabərdir.

Mərkəzi kitabxanada oxucuların sayı 1103, filiallarda isə 1828, bütövlükdə 2931 nəfərdir. Oxucularımızın əksəriyyəti məktəblilərdir. Yeri düşmüşkən qeyd edək ki, bu və ya digər tədbirlərin, yazıçı və şairlərimizin yubiley gecələrinin, müsabiqə və sərgilərin təşkili zamanı məktəblilərin fəal iştirakına nail olmağa çalışırıq.

**Biz rayonun bütün tədbirlərinə qoşulur, kitabların təbliği, kitabxanalarımızın yeni ədəbiyyatla təminatı məqsədilə müxtəlif layihələr gerçəkləşdiririk...**

**A.QƏHRƏMANQIZI**